https://www.realtv.az/news/az/69955/kitabxananin-elektron-toplusu-video

**Prezident kitabxanası tammətnli elektron toplunu təqdim etdi**

Prezident Kitabxanasında “Azərbaycan regionlarının sosial-iqtisadi inkişafı” adlı tammətnli elektron toplu istifadəyə verilib




Mayıl Əhmədov bildirdi ki, kitabxananın əməkdaşlarının topladıqları və sistemləşdirdikləri tammətnli elektron toplunun materialları dörd fəsildə istifadəçilərə təqdim edilir.

Tammətnli elektron sənədlər toplusu, regions.preslib.az subdomeni vasitəsilə dövlət qurumlarının məsul əməkdaşlarının, bu sahəni araşdıran tədqiqatçıların, eləcə də geniş oxucu kütləsinin internet vasitəsilə istifadəsi üçün nəzərdə tutulur.

Qeyd edək ki, elektron topluda prezident İ.Əliyevin azad edilmiş torpaqlara səfəri və səfər zamanı etdiyi çıxışlar da yer alıb. Həmçinin tammətnli elektron toplu mütəmadi olaraq yenilənilir.